Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə, müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**



# Azad rayonlara xarici missiya səfərləri 44 günlük müharibə həqiqətlərinin tanıdılmasında təsirli vasitə kimi...

**İşğaldan azad edilən müqəddəs torpaqlarımızın hər qarışını yenilməz Azərbaycan Ordusu müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edib. Şanlı ordumuzun tariximizə yeni parlaq səhifələr yazan zəfər yürüşü, qurtuluş savaşı ərazilərimizin işğaldan azad edilməsi ilə nəticəsindi. 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti və xalqı özünün Zəfər tarixini yaratdı.**

O Zəfər tarixi ki, dünya durduqca şəhidlərimizi, əbədi azadlıq aşiqlərini, qazilərimizi minnətdarlıqla yada salıb yaşadacaq, nəsillərdən-nəsillərə qutsal miras kimi ötürəcək. Heç şübhəsiz, mu?zəffər Ali Bas? Komandanın rəhbərliyi ilə 44 gu?nlu?k "Vətən mu?haribəsi"ndə qazanılmıs? tarixi qələbə Azərbaycanın qüdrətli bir dövlət kimi dünyada, beynəlxalq aləmdə özünü bir daha təsdiq etməsi idi. Bu gün dünya yaxşı bilir ki, Azərbaycan öz ərazilərini necə işğaldan azad edib, hansı örnəklər sərgiləyib...

**Bütün dünya Azərbaycanın necə bir vəhşi toplumla üz-üzə qaldığını gördü...**

Azərbaycan torpaqları 30 ilə yaxın bir müddətdə separatçı, işğalçı, terrorçu Ermənistan silahlı birləşmələrinin tapdağında qalıb. Bu 30 ildə Ermənistan Azərbaycan ərazisində bəşəriyyət, insanlıq əleyhinə qanlı hərbi cinayətlər törədib ki, bunlar birbaşa sülhə, insanlığa qarşı olub. Heç şübhəsiz, Ermənistan tərəfindən to?rədilmis? su?lh və insanlıq əleyhinə cinayətlərin, eləcə də mu?haribə cinayətləri ilə bag?lı həqiqətlərin du?nya ictimaiyyətinə c?atdırılması vacib bir məsələdir.

Bildiyimiz kimi, Azərbaycanın tarixi qələbəsindən sonra dünyada ölkəmizə olan münasibət dəyişməyə başladı və mütərəqqi, sülhsevər dövlətlərin, beynəlxalq təşkilatların hamısı Azərbaycanın ədalətli mövqeyinə dəstək nümayiş etdirdilər, bu gün də o dəstəyi görürük.

Bildiyimiz kimi, işğaldan azad edilən ərazilərimizdə erməni vəhşiliyinin qanlı izləri yaşayır. Bu baxımdan mütəmadi olaraq xarici jurnalistlərin, deputatların, ictimai siyasi xadimlərin, diplomatik korpus nümayəndələrinin, beynəlxalq təşkilatların nümayəndələrinin azad edilmiş ərazilərə səfərləri təşkil edilir, erməni cinayətlərini öz gözləri ilə görmələri, dünyaya çatdırmaları üçün imkanlar yaradılır. Qeyd etdiyimiz kimi, bütün sahələrin təmsilçiləri, o cümlədən də din xadimləri azad ərazilərə, eyni zamanda da 44 günlük Vətən müharibəsində Ermənistan tərəfindən vurulan Gəncəyə, Bərdəyə və başqa şəhərlərimizə gedirlər, ermənilərin mülki əhaliyə qarşı törətdiyi hərbi cinyətlərin şahidi olurlar. Xarici nümayəndələr tez - tez azad edilmiş ərazilərimizə səfərlər edirlər. Son günlər isə Türk Şurası ölkələrin jurnalistləri azad ərazilərdə, o cümlədən də Gəncədə səfərdə olublar.

**"Dünyanın bilməli olduğu həqiqətləri dünyaya çatdırır"**

"Müasir İnkişaf" Birliyinin rəhbəri Mübariz Göyüşlü bizimlə söhbətində qeyd etdi ki, azad rayonlara xarici nümayəndələrin səfərlərinin təşkil edilməsi 44 günlük müharibə həqiqətlərinin tanıdılmasında təsirli vasitə kimi diqqəti çəkir. "Xarici ölkə nümayəndələrinin, siyasilərin, xüsusən də jurnalistlərin işğaldan azad edilən ərazilərə səfərlərinin təşkil edilməsi olduqca müsbət effekt verir. Onların bu ərazilərə səfərləri dünyanın bilməli olduğu həqiqətləri dünyaya çatdırır. Bu insanlar azad edilmiş ərazilərə gedərkən orada Ermənistanın bəşəriyyət, insanlıq, sülh əleyhinə törətdiyi qanlı cinayətlərin şahidi olurlar. Ermənistnın bizə vurduğu ağır zərbənin, dağıntıların miqyasını göstətmək, dünyaya çatdırmaq üçün bu səfərlər xüsusi önəm daşıyır. Çox faydalıdır. Eyni zamanda biz xaricilərə Azərbaycan dövlətinin, ordusunun gücünü, qüdrətini, əzəmətini nümayiş etdirmiş oluruq. Bura gələn xarici qonaqlar əyani şəkildə şahidi olurlar ki, illərdir icarası düyünə düşən BMT qətnamələrini müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində Azərbaycan ordusu öz canı-qanı hesabına yerinə həyata keçirdi. Onlar görürlər ki, 44 gün ərzində şanlı, qəhrəman Azərbaycan ordusu döyüşərək hansı əraziləri azad edib".

M.Göyüşlünün sözlərinə görə, eyni zamanda azad ərazilərdə başlanan tikinti-quruculuq, bərpa işlərinin də xarici qonaqların, nümayəndələrin gözləri qarşısında baş verməsinin əhəmiyyəti var, onlar görürlər ki, Ermənistan bizə nə qədər zərər vurub, şəhərlərimizdə daşı-daş üstündə qoymayıb, amma Azərbaycan dövləti şəhərlərini, kəndlərini yenidən qurur, keçmiş məcburi köçkünləri öz evlərinə qaytarmağa hazırlaşır. "Bu proses də bölgəyə səfər edən xarici nümayəndələrdə o təəssürratı yaradır ki, Azərbaycan öz torpaqlarını kimsəyə güzəştə getmədi, getməyəcək də. Həmçinin torpaqlarını azad edən kimi də dərhal burada tikinti-quruculuq, bərpa işlərini həyata keçirdi. Bu isə o deməkdir ki, bu torpaqların əsl sahibləri azərbaycanlılardır və bur torpaqların əsl sahibləri bir daha tərk etməmək şərti ilə öz evlərinə qayıdırlar. Bu prosesə də səfər iştirakçıları şahidi olurlar.

Yeri gəlmişkən, bir məqamı da qeyd edim ki, istər xaricdən gələn nümayəndələrini, istərsə də Azərbaycan vətəndaşlarını tez-tez azad ərazilərə səfərlərinin təşkil edildiyinin şahidi oluruq..."deyə bildirən M.Göyüşlü hesab edir ki, haqqı olan şəxslərin bu ərazilərə səfər etməsi müsbət haldır və faydalıdır, bu baxımından ki, bu insanlar Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə məşğul olublar. M.Göyüşlünün sözlərinə görə, azad edilmiş ərazilərə nə qədər çox səfərlər təşkil edilərsə, Azərbaycan həqiqətlərinin bunun beynəlxalq aləmdə təbliğinə müsbət təsir göstərər...

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**